

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 oktyabr 2024-cü il №80 (2891) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Zəngilanın azad olunmasının növbəti ildönümü ilə bağlı paylaşım edib

Prezident İlham Əliyev Zəngilanın işğaldan azad edilməsinin növbəti ildönümü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.

AZƏRTAC paylaşımı təqdim edir: "Zəfər tariximiz - Zəngilanın Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydendən

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident,

İki ölkə arasında münasibətlərin normallaşdırılmasına xidmət edəcək sülh sazişinin yekunlaşdırılması istiqamətində ölkənizin və Ermənistanın əldə etdiyi davamlı tərəqqidən məmnunam. Sizi əmin etmək istəyirəm ki, ABŞ əsrlər boyu davam edən münaqişəyə nəhayət son qoyacaq Azərbaycan ilə Ermənistan arasında dayanıqlı və ləyaqətli sülhün əldə edilməsinə dəstək verməyə hazırdır.

Sülh sazişi Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi ilə yanaşı, bütün regionu transformasiya edəcək, Avropa və Mərkəzi Asiya arasında daha çox ticarətə, sərmayə qoyuluşuna və bağlılığa xidmət göstərəcək. Dünyanın diqqəti COP29 ilə bağlı Bakıya yönəldiyi bir vaxtda qlobal ictimaiyyətə sülhə sadiqliyinizi nümayiş etdirmək üçün misilsiz imkana maliksiniz. Bildiyiniz kimi, sülh sazişinin razılaşdırılmamış bəndlərinə dair işin yekunlaşdırılması hər iki tərəfdən kreativlik və güzəşt tələb edəcək. Lakin əminəm ki, bu imkandan yararlanmağa davam edəcəksiniz. Mən Sizi cari ildə sazişi yekunlaşdırmağa dəvət edirəm.

Bu məsələyə dəstək verməyə sadiq olduğumu bildirmək istəyirəm. Mənim administrasiyam sülhə yol açacaq cəsarətli təşəbbüslərin irəli sürülməsinə hazırdır. Xahişimlə xüsusi köməkçim, Avropa üzrə baş direktor Maykl Karpenter atmağa hazır olduğumuz müəyyən addımlarla bağlı Sizi məlumatlandıracaq və Ermənistanla müzakirələrə dair Sizin mövqeyinizi öyrənəcək.

Ümid edirəm ki, birgə firavanlıq və ümumi xeyir naminə regiona dair yeni kursun seçilməsi üçün bu fürsətdən yararlanacaqsınız.

Hörmətlə,

**Cozef Bayden**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

*Payız fəsli təbiətin gözəlliklərini sərgilədiyi, rənglərin bir-birini əvəz etdiyi bir fəsildir. İsti yay günlərindən sərin, yağışlı payız havası ilə meşələrin sarı, qırmızı və narıncı rənglərə büründüyü bu dövrdə uzun bir yola çıxmışıq. Payızda təbiət bir rəssamın palitrası kimi canlanır. Saralaraq yerə düşmüş yarpaqların xışıltısı ilə sanki təbiət öz sirlərini fısıldayır. Müntəzəm yağan yağışlar yerin qoxusunu artıraraq, havanın təravətini daha da zənginləşdirir. Meşələrdən keçərək yavaş-yavaş daşlı-qayalı dağlara doğru qalxırıq. Keçdiyimiz o rəngarəng yerlər öz yerini boz qayalıqlara verir. Zirvəyə qalxan bu yol uzandıqca uzanır. Dağların sərtliyi, onların üstündəki incə buludlar sanki əsgərlərimizin qətiyyətini simvolizə edir. Orada, döyüş mövqelərində xidmət edən əsgərlərimiz də bu dağlar kimi mətinliklə Vətənin müdafiəsində dayanırlar. Çətin relyefli bu yerlərdə təbiətin sərt üzünə dik baxaraq məğlubedilməzliklərini sübut edirlər sanki. Nəhayət, dolanbac yollarla döyüş mövqelərimizə çatırıq.*

*Reportaj*

## Zirvələr, vətənpərvərlik, qətiyyət, inam



Bizi qarşılayan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Samir Abdullayev bölmənin zabitinə heç bir hadisənin baş vermədiyi, döyüş növbətçiliyinin təşkili, qarşı tərəfin bütün fəaliyyətlərinin nəzarət altında saxlanıldığı barədə raport verir. S.Abdullayev döyüş postunda istənilən təxribatın qarşısını almaq məqsədilə müxtəlif qurğular və manevrlər yaradıldığını da vurğulayır. "Əsgərlərin hər biri də daim ayıq-sayıq xidmətdədir. Şəxsi heyət istənilən tapşırığı icra etməyə hazırdır".

Söhbət əsnasında öyrənirik ki, çavuş S.Abdullayev on yeddi ildən artıqdır ki, ordu sıralarında xidmət edir. Tarixi qələbəmizlə başa çatan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub. Bundan başqa, o, həm də 2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Ordusunun Qarabağ iqtisadi rayonunda həyata keçirdiyi antiterror əməliyyatında torpaqlarımızın Ermənistan ordusunun qalıqlarından və separatçılardan təmizlənməsində iştirak edib. Keçdiyi döyüş yolunu xatırlayan çavuş S.Abdullayev deyir: "Vətən müharibəsi və antiterror əməliyyatı hər birimiz üçün çox mühüm və tarixi hadisələrdir. Əməliyyatlar zamanı əsgərlərimizin göstərdiyi igidliklər hər birimizin qəlbində dərin izlər buraxıb. Hər bir əsgər özünü bu müqəddəs borcun bir hissəsi kimi hiss edərək, böyük fədakarlıq və cəsarətlə döyüşüb. İllərdir işğalda olan torpaqlarımız artıq öz azadlığına qovuşub. Qazanılan qələbələrdən sonra bizim əsas məqsədimiz torpaqlarımızın ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Əsgərlərimizin yüksək mənəvi-psixoloji vəziyyəti və döyüş hazırlığı sayəsində bu məqsədə nail oluruq".

Vətən müdafiəçilərinin də düşüncələrini qələmə almaq üçün onlarla söhbətləşirik. Əsgər Aqşin Məmmədli Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının məzunudur. "Mən fəxr edirəm ki, bu gün Vətənin keşiyində dayananların sırasındayam. Bu, əsl mərdlik, qəhrəmanlıq yoludur. Vətənini sevən hər kəs bu şərəfli yolu keçməlidir. Biz güclüyük. Bu gücün mənbəyi Vətən sevgisi, xalqımızın bizə olan etimadıdır. Azərbaycan xalqının öz ordusuna olan dəstəyini, ordu-xalq birliyini Vətən müharibəsi zamanı bütün dünya həsədlə izlədi. Mənfur düşmən üzərində qazanılan hər bir qələbənin ardında ordumuzun gücü ilə yanaşı, xalqımızın mənəvi dəstəyinin də böyük rolu oldu", - əsgər A.Məmmədli deyir.

**(Ardı 2-ci səhifədə)**



3-cü səhifədə

Uğurlu xidmətin təməli



4-cü səhifədə

"Hərbi qulluqçularımızın sağlamlığının keşiyindəyik"



6-cı səhifədə

Canını Vətənə fəda edən qəhrəman



## Azərbaycanın müdafiə naziri Qırğızıstana rəsmi səfər edib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Qırğız Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotovun dəvəti ilə Qırğızıstana rəsmi səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində general-polkovnik Zakir Həsənovun bir sıra görüşlərinin keçirilməsi nəzərdə tutulub.

## **ANAMA:** Ötən həftə 763 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra edilən minatəmizləmə əməliyyatlarına dair həftəlik məlumatı açıqlayıb.

Oktyabrın 14-dən 20-dək Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 200, tank əleyhinə 49 mina və 763 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 470.2 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Müdafiə Nazirliyinin rəhbərliyi "SAHA EXPO 2024" sərgisinin açılış mərasimində iştirak edib






Azərbaycan Respublikası müdafiə nazirinin müavinləri - Baş direktor cənab Aqil Qurbanov, Quru Qoşunlarının komandanı general-leytenant Hikmət Mirzəyev və Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə Türkiyədə keçirilən "SAHA EXPO 2024" Beynəlxalq Müdafiə, Aviasiya və Kosmik Sənaye Sərgisində iştirak etmək üçün qardaş ölkədə işgüzar səfərdədirlər.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbər heyəti, Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler, həmçinin qardaş ölkənin və digər ölkələrin bir sıra dövlət və hökumət rəsmiləri oktyabrın 22-də İstanbulda təşkil olunan sərginin açılış mərasimində iştirak ediblər.

Nazir müavinləri sərgidə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin və Müdafiə Nazirliyinin təqdim etdiyi stendlər, həmçinin nümayiş etdirilən digər müasir silah və döyüş texnikası nümunələri ilə tanış olub, bir sıra şirkət rəhbərləri ilə görüşlər keçiriblər.

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində, həmçinin Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler və Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri cənab Haluk Görgün ilə görüşüb.

Görüşlərdə dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslanan Azərbaycan-Türkiyə hərbi əlaqələrinin daha da genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb. Ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri və digər məsələlər müzakirə edilib.






# Zirvələr, vətənpərvərlik, qətiyyət, inam

**(Əvvəli 1-ci səhifədə)**



Əsgər İbrahim İbrahimli də söhbətə qoşularaq öz fikirlərini bizimlə bölüşür. "Hərbi xidmətim dövründə yaşadığım günlər heç vaxt yaddaşımdan silinməyəcək. İlk dəfə hərbi formanı geyinməyim, Hərbi Andı qəbul etməyim, döyüş növbətçiliyinə çıxmağım hər zaman hafizəmdə qalacaq. Çünki burada xidmət yoldaşlarımla maraqlı günlərimiz olub. Çoxlu dostlar qazanmışam. Düzdür, burada xidmət etmək ikiqat məsuliyyətlidir. Ancaq inanıram ki, xidmətimiz gələcək həyatımıza da müsbət təsir edərək güclü, qətiyyətli, inamlı olmağımıza kömək edəcək", - deyə əsgər İ.İbrahimli bildirir.

- Bir əsgər kimi torpaqlarımızın keşiyində dayanmağı özümə müqəddəs borc bilirəm, - əsgər Əmrah Muradov deyir. "Ordu sıralarına İsmayıllı rayonundan çağırılmışam. Artıq xidmətimin sona çatmasına sayılı günlər qalıb. Hərbi xidmətə başladığım ilk gündən çalışmışam ki, verilən əmr və tapşırıqları sözsüz və vaxtında yerinə yetirim. Bacarıqlı əsgər olmaq üçün komandirlərimizin təcrübəsi, bilik və savadı, onların keçdikləri döyüş yolu hər birimizə nümunədir. Məhz onların qayğıkeşliyi, tələbkarlığı sayəsində hər birimizin döyüş ruhu, atəş və fiziki hazırlığı yüksəkdir. İnanıram ki, xidmətimlə komandirlərimin etimadını qazanmışam".



Əsgər Ramiq Muradov bildirir: - Uşaq yaşlarımdan Vətənə xidmət etməyi arzulayırdım. Zaman keçdi və bu gün artıq əsgərəm. Xidmətə böyük bir həvəslə başlayaraq, hər məşğələdə fəal olmağa çalışıram. Qısa bir müddətdə bir sıra hərbi bilik və bacarıqlara yiyələnmişəm. Torpaqlarımızın müdafiəsində hər zaman ayıq-sayıq, mətinliklə dayanacağam, içdiyim Hərbi Anda sadiq qalacağam.

Xidmətə Şamaxı rayonundan çağırılan əsgər Kənan Tağıyev də hərbi formanı daşımağın sevincindən danışır: "Torpaqlarımızın müdafiəsində dayanmaq həyatımın ən böyük şərəfidir. Hərbi xidmətə çağırıldığım ilk gündən öyrəndiklərim həyatımda dərin izlər buraxıb. Komandirlərimizin təcrübəsi, onlar tərəfindən keçirilən təlim-məşqlər hər birimizin peşəkar hərbçi kimi formalaşmağında böyük rol oynayıb. Artıq bizə təhkim olunan silahlardan sərrast atəş açır, onların taktiki-texniki xüsusiyyətlərini dərindən bilirik. Bundan başqa, fiziki hazırlığımızı da artırmaq üçün gündəlik idman hərəkətləri edirik. Hər ötən gün özümüzü daha da inkişaf etdiririk. Çalışırıq ki, şəhidlərimizin canı, qanı bahasına azad edilmiş torpaqlarımızı göz bəbəyimiz kimi qoruyaq, Vətənimizə, xalqımıza, ordumuza layiqli əsgər kimi formalaşaq", - əsgər K.Tağıyev deyir.

Digər əsgərlər də zirvələrdə döyüş növbətçiliyi aparmaqdan qürurlandıqlarını bildirirlər. Hərbi qulluqçularımızın hər birinin qətiyyəti, cəsarəti, qəlbindəki Vətən sevgisi, vətənpərvərlik hissi, eləcə də döyüş ruhunun yüksək olması verilən bütün tapşırıqların öhdəsindən inamla gələcəklərinə bizdə əminlik yaradır. İnanırıq ki, Vətənin keşiyində məğrur dayanan qalib ordunun mətin əsgərləri hər zaman istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdırlar.

**Baş leytenant
Oruc MUSTAFAYEV
"Azərbaycan Ordusu"**



# Azərbaycanın Özbəkistandakı hərbi attaşelik aparatının təşkilatçılığı ilə tədbir keçirilib







Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı hərbi attaşelik aparatının təşkilatçılığı ilə Daşkənd şəhərində yerləşən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində tədbir keçirilib.

Tədbirdə Azərbaycan, ABŞ, Almaniya, Belarus, İtaliya, Koreya, Polşa, Rusiya, Türkiyə və Türkmənistan hərbi attaşelik aparatının nümayəndələri iştirak ediblər.

Qonaqlara mərkəzlə bağlı ətraflı məlumat verildikdən sonra burada fəaliyyət göstərən muzeylərə ekskursiya təşkil edilib. Nümayəndə heyəti muzeylərdə nümayiş etdirilən foto şəkillər və tarixi eksponatlarla tanış olub.

Sonda mərkəzin mahnı və rəqs ansamblının ifasında təqdim edilən musiqi nömrələri qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.

**"Azərbaycan Ordusu"**

# "N" hərbi hissəsinin yaranma günü qeyd olunub





"N" hərbi hissəsinin yaranma günü münasibətilə tədbir keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə hərbi hissənin şəxsi heyəti, ictimaiyyətin nümayəndələri, müharibə iştirakçıları və şəhid ailələri iştirak ediblər.

Müdafiə Nazirliyi rəhbərliyinin təbriki şəxsi heyətə çatdırıldıqdan sonra hərbi hissənin yaranma tarixi, keçdiyi döyüş yolu barədə ətraflı məlumat verilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunda aparılan uğurlu islahatların müsbət nəticələri bir daha tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Daha sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu təltif edilib.

Tədbir Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkil etdiyi konsert proqramı ilə sona çatıb.

**"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçular arasında atletika üzrə yarış keçirilib

*Quru Qoşunlarının 2024-cü il üçün hazırlıq planına əsasən, hərbi qulluqçular arasında atletika üzrə yarış keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, beynəlxalq qaydalara uyğun olaraq keçirilən yarışda, birlik, birləşmə və əlahiddə bölmələrdən 6 komanda üzrə 59 nəfər iştirak edib.

Plana əsasən, komandalar müxtəlif məsafələrə qaçış, turnikdə dartınma, turnikdə aşaraq dayağa qalxma, eləcə də estafet yarışlarında güclərini sınayıblar.

Yarışa Quru Qoşunlarının fiziki hazırlıq və idman bölməsinin zabitləri hakimlik ediblər.

Hərbi qulluqçuların fiziki hazırlıq səviyyələrinin yüksəldilməsi məqsədilə keçirilən yarışın yekununda qaliblərə kubok və medallar təqdim edilib.

## *Sıra hazırlığı*

# Uğurlu xidmətin təməli

*Hərbi qulluqçu üçün sıra hazırlığı vacib amillərdəndir. Belə ki, yüksək döyüş hazırlığının təməlində sıra hazırlığı dayanır. Bu səbəbdən də bölmələrdə hərbi xidmətin "əlifba"sı bildiyimiz sıra hazırlığı məşğələsinin səmərəli təşkili diqqətdə saxlanılır. "N" hərbi hissəsində gənc əsgərlərin sıra hazırlığı dərsini izlədik. Baş leytenant Ramin Muradov əsgərlərə silahsız sıra elementlərini öyrədirdi.*



"Əsgərlərə sırada addımlama, sıradan çıxma, rəisə yaxınlaşma, rəisdən uzaqlaşma və digər elementləri öyrədirik. Hər biri məşğələyə həvəslə yanaşır, verilən tapşırıqları bacarıqla icra edirlər. Həmçinin onlara sıranın mahiyyəti, müqəddəsliyi haqqında danışırıq. Hər biri yaxşı dərk edir ki, hərbi xidmətin təməli sıradan başlanır", - baş leytenant R.Muradov dedi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Eldəniz Abbasov on altı ildir xidmətdədir. Onun sıra hazırlığı keçdiyi əsgərlər də öyrədilən bütün elementləri yüksək səviyyədə icra edirdilər. Çavuş E.Abbasov məşğələni həm nəzəri, həm də praktiki izah edirdi. Hər komandanı əvvəlcə özü göstərir, sonra əsgərlər yerinə yetirirdilər. Eldənizin bacarıqlı, məsuliyyətli, xidmətdə tələbkar olduğu hiss olunurdu.

Fasilədən istifadə edib əsgərlərin də düşüncələrini qeydə aldıq. Əsgər Ruslan Adilov Ağcabədi rayonundan ordu sıralarına çağırılıb. Azərbaycan Texniki Universitetini "Ekologiya mühəndisi" ixtisası üzrə bitirib. Ruslan dedi ki, Vətənə övladlıq borcunu inamla yerinə yetiririk. "Hər bir gəncin arzusudur ki, qalib və rəşadətli ordumuzun əsgəri olsun, müddətli xidmətini uğurla keçsin. Xalqımıza Böyük Qələbə qazandıran ordunun sıralarında xidmət etməkdən, qalib ordunun əsgərləri olmaqdan qürurluyuq. Hərbi sirlərə, vərdişlərə yiyələnmək üçün can atırıq. Sıra hazırlığından əlavə digər dərslərdə keçir, bacarıqlı əsgərlər kimi formalaşacağımıza çalışırıq".

Əsgərlərdən Musa Veysov, Mahir Mahmudov, İsmayıl İsmayılov, Orxan Zərgərov, Səbuhi Məmmədov, Firuz Əliyev və başqaları sıra məşqlərini qısa müddətdə yetərincə mənimsəyiblər. Onların da başlıca məramı komandirlərin öyrətdikləri hərbi bilikləri dərindən mənimsəyərək ciddi riayət etməkdir. Gənc əsgərlərlə məşğələlərin səmərəli təşkil olunması və onların öyrədilənləri həvəslə mənimsəməsi uğurlu xidmətin əsasıdır.

**Bəxtiyar ƏLİYEV,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# "Hərbi qulluqçularımızın sağlamlığının keşiyindəyik"

*Azərbaycanda tibb sahəsi son illərdə sürətli inkişaf yolu keçərək vətəndaşlarımıza yüksək keyfiyyətli xidmət göstərmək məqsədilə müasirləşdirilib. Dövlət səviyyəsində həyata keçirilən islahatlar nəticəsində ölkəmizdə yeni tibb müəssisələri açılır, mövcud olanlar isə müasir avadanlıqlarla təchiz edilir. Bundan başqa, tibb heyətinin peşəkarlığının, bilik və bacarıqlarının artırılması məqsədilə müxtəlif təlim proqramları həyata keçirilir.*



Bütün sahələrdə olduğu kimi, Azərbaycan Ordusunda da tibb sahəsi xüsusi diqqətdə saxlanılır. Hərbi tibb sahəsinin inkişafı ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi və əsgərlərimizin sağlamlığının qorunması üçün xüsusi əhəmiyyət daşıyır. Xüsusilə şəxsi heyətə yüksək səviyyədə göstərilən tibbi xidmət ordumuzun döyüş qabiliyyətinin daim yüksək saxlanılmasına imkan verir.

İşğaldan azad olunmuş ərazilərimizdə yerləşən hərbi hissələrdən birinin tibb müəssisəsində hərbi qulluqçularımıza yüksək xidmətin göstərildiyinin şahidi olduq. Burada çalışan peşəkar tibb personalı şəxsi heyətin sağlamlığının qorunması üçün tapşırıqları məsuliyyətlə yerinə yetirirdi. Müasir, geniş və işıqlı otaqlar ən son tibbi avadanlıqlarla təchiz olunub. Müəssisədə stasionar və izolyasiya otaqları daim hazır vəziyyətdə saxlanılır.



Tibb xidməti polkovnik-leytenantı Niyaz Ələkbərov bildirdi ki, burada çalışan personal öz işinə peşəkarlıqla yanaşır. "Hərbi həkim adını daşımaq və azad edilmiş ərazilərdə Vətənə xidmət etmək bizə fəxarət hissi yaşadır. Vətənimizə olan borcumuzu yerinə yetirmək və şəxsi heyətin sağlamlığının keşiyində dayanmaqla içdiyimiz anda sadiqliyimizi nümayiş etdiririk".

Zabitlə söhbət edə-edə hərbi hospitalın bölmələrinə yaxınlaşırıq. Stomatologiya bölməsinə diş ağrısı diaqnozu ilə müraciət edən əsgər Qismət Cabbarovla həmsöhbət olduq. Onun müayinəsi tibb xidməti leytenantı, həkim-stomatoloq Əli Cəfərov tərəfindən aparılırdı. Ə.Cəfərov bildirdi ki, müəssisədə mövcud olan müasir avadanlıqların köməyi ilə hərbi qulluqçulara tam ağrısız şəkildə müayinə və müalicə prosesi göstərilir. Tibb xidməti leytenantı qeyd etdi ki, müraciət edən xəstələrin bir çoxunda kariyes problemi var. "Xəstələrdə rast gəlinən kariyes problemi təkcə dişlərin vaxtından tez itirilməsinə səbəb olmur, həm də ağız-udlaq, çənə sümüyünün iltihabı və digər xəstəliklər yarada bilir. Bunun üçün kariyesli dişləri vaxtında müayinə və müalicə etmək lazımdır".

Sonra tibb xidmətinin ayrılmaz hissəsi olan laboratoriya şöbəsinə yaxınlaşdıq. Müasir tibbi diaqnostik və texnoloji avadanlıqlarla təchiz olunan laboratoriyada analizlərin dəqiqliyi yüksək səviyyədə həyata keçirilir. Tibb xidməti leytenantı Taleh Məmmədov şöbənin işini belə xarakterizə etdi: "Bizim laboratoriya ən müasir cihazlarla təchiz olunub və burada hər növ analizləri dəqiqliklə aparmaq mümkündür. Müasir diaqnostika avadanlıqları sayəsində analizlərin nəticələrini sürətlə əldə edirik ki, bu da xəstələrin vaxtında düzgün müalicə olunmasına imkan yaradır. Bizim məqsədimiz şəxsi heyətin sağlamlıq vəziyyətini daim nəzarətdə saxlamaq və ən kiçik problemi belə vaxtında aşkarlamaqdır. Tibb sahəsində dəqiqlik və operativlik həyati əhəmiyyət daşıyır və biz də bu prinsiplərə əsaslanaraq xidmət edirik".



Tibb müəssisəsində göstərilən terapiya xidmətləri də xüsusi əhəmiyyət kəsb edir. Bölmənin ordinatoru, tibb xidməti kapitanı Emil Kərimov da fikirlərini bizimlə bölüşdü: "Terapiya bölməsi olaraq biz hər bir əsgərin sağlamlığına xüsusi həssaslıqla yanaşırıq. Əsas məqsədimiz onların sağlamlığını qorumaqdır. Burada həm xroniki xəstəliklərin müalicəsinə, həm də profilaktik tədbirlərə xüsusi diqqət yetirilir. Müasir avadanlıqlar və analiz imkanları bizə diaqnozları dəqiq və operativ şəkildə təyin etməyə kömək edir. Vətənə xidmət edən hər bir hərbçinin sağlamlığına məsuliyyətlə yanaşmaq bizim borcumuzdur".

Radiologiya bölməsində tibb xidməti kapitanı Pərvin Vəliyev müayinələrin dəqiq və operativ şəkildə həyata keçirildiyini bildirdi: "Radiologiya bölməsi ən müasir avadanlıqlarla təmin olunub. Bu, bizə qısa müddətdə xəstələrin diaqnozunu müəyyənləşdirməyə imkan verir. Xüsusilə ultrasəs müayinəsi (USM) ilə daxili orqanlarda yaranan problemləri vaxtında aşkarlayırıq. Əsgərlərimizin sağlamlıq vəziyyətini dəqiq izləmək bizim üçün vacibdir".

Bölmədə əsgər Murad Adıgözəlovun ultrasəs müayinəsi həyata keçirilirdi. Müayinədən sonra əsgər öz təəssüratlarını bildirdi: "Qarın nahiyəmdə narahatlıq hiss etdiyim üçün radiologiya bölməsinə müraciət etdim. Hərbi həkimlərimiz məni çox peşəkar şəkildə müayinə etdilər. Ultrasəs müayinəsi zamanı heç bir ciddi problem aşkarlanmadı. Burada göstərilən tibbi xidmətin səviyyəsindən çox razıyam. Həkimlərimiz və tibb personalı müalicə və müayinə üçün müraciət edənlərə həmişə diqqət və qayğı ilə yanaşır, lazımi köməklik göstərirlər".



Tibb müəssisəsində gördüklərimiz deməyə əsas verir ki, burada çalışan həkimlər, feldşerlər, tibb bacıları hərbi qulluqçuların sağlamlığının qorunması naminə qarşıya qoyulan vəzifələri yüksək peşəkarlıqla yerinə yetirirlər.

Vətən torpağını qorumaq müqəddəs və şərəfli olduğu kimi, hərbi həkimlərimiz üçün Vətən müdafiəçisinin sağlamlığının keşiyində durmaq da şərəflidir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

## Hakan Fidan: Türkiyə ilə Azərbaycanın ortaq fəaliyyəti qlobal siyasətə qarşı rasional perspektiv yaradır

*Azərbaycanla bir çox sahələrdə tək dövlət kimi fəaliyyət göstəririk. Həssas qurumlarımız çox yaxın əməkdaşlıq edirlər. İqtisadiyyatlarımız da bir-birinə çox yaxın formada inkişaf edir. Maraqlarımızın müəyyənləşdirilməsi, strateji yanaşmalarımız və dost-düşmən anlayışlarımız bir-biri ilə üst-üstə düşür.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Hakan Fidan yerli televiziya kanallarından birinin suallarını cavablandırarkən ifadə edib.

Nazirin bu ifadələri Türkiyə mətbuatının diqqət mərkəzində yer alıb.

Müsahibəsində Azərbaycan-Türkiyə münasibətləri haqqında danışan nazir ölkələrimizin "Bir millət, iki dövlət" prinsipi ilə hərəkət etdiyini vurğulayıb.

"İki dövlətin, xüsusilə onların strateji qurumlarının ortaq fəaliyyət göstərməsi, başda Cənubi Qafqaz olmaqla, regional və geosiyasi fırtınalarla mübarizə aparan qlobal siyasətə qarşı rasional bir perspektiv yaradır və inteqrasiyanı daha da dərinləşdirir", - deyən Hakan Fidanın bu fikirlərini şərh edən Türkiyə mətbuatı iki ölkə arasındakı münasibətlərin bu qədər dərinləşməsini ortaq fəaliyyətin, uzun və məşəqqətli yolun nəticəsi olaraq qiymətləndirib.

Belə ki, ötən əsrdə formalaşan geosiyasi sistem bunun üçün olduqca böyük çətinliklər yaradırdı. Lakin hazırda bölgədə, xüsusilə İkinci Qarabağ müharibəsindən sonra yaranan siyasi vəziyyət regionun "sahiblənməyə" ehtiyac duyulduğu həqiqətlərini də ortaya qoydu. Bunu da Türkiyənin XİN rəhbəri demək olar ki, hər açıqlamasında vurğulayır.

Qardaş ölkə mətbuatı bu baxımdan Türkiyə, Azərbaycan, İran, Ermənistan və Rusiya xarici işlər nazirlərinin iştirakı ilə İstanbulda baş tutan Cənubi Qafqaz Regional Əməkdaşlıq Platformasının üçüncü toplantısının çox əhəmiyyətli olduğunu qeyd edir. Görüşün sonunda iştirakçı ölkələr tərəfindən yayımlanan ortaq bəyanatda regional sabitlik və iqtisadi əməkdaşlığın vurğulanması da diqqətçəkən məqamdır.

Türkiyə mediası, həmçinin bu kimi toplantıların ən böyük xüsusiyyətinin sabitlik üçün dialoqun dərinləşdirilməsinə töhfə vermək olduğunu vurğulayır.

# İntellektual qabiliyyətli bölmələrin yaradılması ordumuzun müasirləşməsi istiqamətində sıçrayışın təzahürüdür

Çox uzaq keçmişdə deyil, bir neçə il əvvəl filmlərdə izlədiyimiz, reallaşması qeyri-mümkün hesab etdiyimiz fantastik yeniliklər artıq dövrümüzün reallığıdır, gündəlik həyatımızda öz təsdiqini tapır və tətbiq edilir. Bütün sahələrdə olduğu kimi, qlobal miqyasda elmi-texniki tərəqqidə sıçrayışın məhsulu olan texnoloji yeniliklər hərbi sistemdə, ordu quruculuğu və təhlükəsizlik sektorunda da geniş istifadə olunur. Ənənəvi döyüşlər, peşəkar heyətlər tərəfindən idarə olunan zirehli döyüş texnikalarının tətbiqi ilə icra olunan hərbi əməliyyatlar artıq tarixə dönür.

Əvvəllər əvəzolunmaz hesab edilən döyüş taktikaları sürətlə dəyişir. Köhnə silah və texnikanın yerini lazer, kompüter müdaxilələri, biotexnoloji partlayış, hipersəs sürətli silahlar, zəkalı dron sürüləri, nanotexnoloji elementlər, pilotsuz döyüş texnikaları, hətta özü qərarlar qəbul etməyi bacaran döyüş robotları tutur. Bu gün artıq hərbi əməliyyatlar zamanı xüsusi tapşırıqların icrası deyərkən, ilk növbədə, hər kəsin yadına döyüş meydanında praktiki fəaliyyət göstərən fiziki və mənəvi cəhətdən güclü xüsusi təyinatlılar, eləcə də yüksək texnologiyalar, müasir pilotsuz uçuş aparatları, xüsusi müşahidə-izləmə vasitələri ilə onlara dəstək olan mütəxəssislər düşür.

İlk olaraq onu qeyd etmək lazımdır ki, "xüsusi tapşırıqlar" icra etmək məqsədilə belə bölmələrin yaradılması Müzəffər Ali Baş Komandanın göstərişinə əsasən, hərbi quruculuq sahəsində aparılan uğurlu islahatlar sayəsində qüdrətlənən ordumuzun daha da müasirləşməsi istiqamətində sıçrayışın və hərbi xidmətkeçmə ilə bağlı tam fərqli konseptual yanaşmanın təzahürüdür.

Hibrid döyüş əməliyyatlarında bəzən böyük hərbi güc tətbiq etmədən sadəcə dövlətin kritik elektron infrastrukturlarına kompüterlər vasitəsilə müdaxilələr edərək istənilən əhəmiyyətli informasiyaları ələ keçirməklə dövlətin təhlükəsizliyinin təhdid altına alınması müasir dövrün reallığıdır. Günümüzün bu reallığı da, təbii olaraq, Azərbaycanın ordu quruculuğu prosesində nəzərə alınmalıdır və alınır. Əminəm ki, haqqında danışdığımız istiqamətdə uğurlarımız da yetərincədir. Yeni nəsil texnologiyaların, döyüş vasitələrinin tətbiqi ilə bağlı qabaqcıl təcrübə öyrənilməklə yanaşı, bütün bu texnologiyaları peşəkarlıqla tətbiq etməyi və xüsusi tapşırıqları yerinə yetirməyi bacaran mütəxəssislərin aşkar edilməsi, yetişdirilməsi və onların əməyindən səmərəli istifadə olunması istiqamətində Azərbaycan Ordusunda planlı addımlar atılır.




Düşünürəm ki, Milli Müdafiə Universitetinin nəzdində İntellektual qabiliyyətli bölmənin yaradılması da məhz texniki tərəqqi istiqamətindəki hədəflərimizə çatmaq məqsədi daşıyır. Müdafiə Nazirliyində hərbi xidmətkeçmə ilə bağlı tətbiq olunan yeni konsepsiya əsasında yaradılan həmin bölmələrdə xidmət edən yüksək intellektə malik, təhsildə fərqlənən istedadlı gənclərin bilik və bacarıqlarından daha səmərəli faydalanmaqla, onların öz ixtisaslarına uyğun müxtəlif layihələrə və fəaliyyətlərə cəlb olunması, eyni zamanda, onların karyera inkişafına töhfə verilməsi təmin ediləcək.

Bu bölmələrin yaradılması müasir texnologiyaları və fərqli yanaşmaları tətbiq edə biləcək mühüm bacarıqlara malik gənclərin hərbi xidmət müddətində öz peşə sahələri üzrə faydalı iş təcrübəsi qazanmalarının təmin olunması sayəsində yüksək intellektə malik, informasiya texnologiyaları sahəsində müvafiq ixtisasa sahib olan, rəqəmsal bacarıqları inkişaf etmiş insan kapitalının formalaşdırılmasına da əhəmiyyətli töhfə verəcəkdir. Milli Müdafiə Universitetinin tərkibində fəaliyyət göstərəcək İntellektual qabiliyyətli bölmələrdə xidmət dövründə istedadlı gənclər ali təhsil müəssisələrində öyrəndiklərini praktiki icra etməklə bilik və bacarıqlarını daha da təkmilləşdirəcək və qazanacaqları təcrübə sayəsində Vətənə faydalı olacaqlar.

Təbii ki, bu gün cəmiyyətdə çoxlarını "İntellektual qabiliyyətli bölmələrdə yeni imkanların yaradılması nə kimi fayda verəcək və xüsusi bacarığa malik bu gənclər hansı tapşırıqları yerinə yetirəcək?" kimi suallar maraqlandıra bilər. Hesab edirəm ki, həmin gənclər yeni nəsil pilotsuz uçuş aparatlarının yaradılması, lazer silahlar və nanotexnologiyalar sahəsində kreativ ideyaların ortaya qoyulması, yeni texnoloji vasitələrə, avtomatik idarəetmə sistemlərinə texniki xidmətin göstərilməsi, həmçinin hərbi texnikanın robotlaşdırılması prosesində böyük uğurlara imza ata bilərlər.

Yüksək intellektə malik həmin gənclərdən faydalanaraq süni intellekt əsasında işləyən neyroşəbəkə vasitəsilə audiovizual materialların emalı, qlobal internet şəbəkəsinin monitorinqi və hesabatların hazırlanması, məxfilik rejiminin qorunmasını təmin edən milli mesajlaşma mübadilə sistemlərinin, media paylaşım şəbəkələrinin hazırlanması kimi sahələrdə uğurlu layihələr həyata keçirmək mümkündür. İntellektual qabiliyyətli bölmələrdə xidmətə cəlb edilən gənclərin istedad və bacarığı sayəsində Azərbaycan Ordusu üçün milli kompüter proqramlarının və tətbiqlərin, sosial şəbəkə platformalarının hazırlanması və beynəlxalq sistemə inteqrasiyası, həmçinin kriptoqrafiya sahəsində də mühüm uğurlara nail olmaq mümkündür. Eyni zamanda, yüksək istedada malik, intellektual qabiliyyətli gənclərdən döyüş texnikası, hava hücumundan müdafiə və aviasiya vasitələri, simulyasiya mərkəzləri üçün müxtəlif proqramların yazılması və tətbiqi sahəsində, həmçinin kompüter dəstəkli təlimlərin hazırlanması və keçirilməsində də faydalanmaq mümkündür.

Fəxr edirik ki, ölkəmizdə bu sahədə yetərincə istedadlı, yüksək intellektual qabiliyyətli gənclər yetişməkdədir. Azərbaycanda və Türkiyədə keçirilən "Texnofest" müsabiqələrində hərbi qulluqçularımızın və istedadlı gənclərimizin uğurla iştirak edərək mükafata layiq yerlər tutmaları buna bariz nümunədir.

Bildiyimiz kimi, müasir texnologiyalarla bağlı layihələrin icrası və ordu quruculuğu prosesində tətbiqi böyük iqtisadi imkanlar tələb edir. Ölkəmizin iqtisadi qüdrəti hərbi qüdrətimizin güzgüsüdür. Qürurverici məqamdır ki, dövlətimizin iqtisadi qüdrəti hərbi qüdrətimizin yüksəlməsində uğurla əks olunur. Əminəm ki, bundan sonra da bu istiqamətdə qələbələrimiz, nailiyyətlərimiz bizi sevindirəcək və İntellektual qabiliyyətli bölmələrdə xidmət edən gənclərimizin də bu uğurlarımızda payı yüksək olacaqdır. Elm və texnikanın ən son nailiyyətlərindən effektiv istifadə edən ordular gələcəyin qüdrətli ordusu olacaqdır. Qürurverici faktdır ki, bu qüdrətli ordular sırasında Azərbaycan Ordusu da vardır.

**İsa İSMAYILOV**
**ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist**

# 20 oktyabr - Zəngilan Şəhəri Günüdür

Vətən müharibəsinin 24-cü günü - 2020-ci il oktyabrın 20-si hərb tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi həkk olunub.

1993-cü il oktyabrın 29-da Ermənistan tərəfindən işğal olunan Zəngilan rayonu tamamilə dağıdılıb, zəngin təbii ehtiyatları talanaraq xarici ölkələrə daşınıb. İyirmi yeddi il davam edən işğal dövründən sonra Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz uğurlu hərbi əməliyyatlar nəticəsində rayonu erməni quldur birləşmələrindən təmizləməyə nail olub. 44 günlük Zəfər yürüşündə hər gün gələn qələbə xəbərləri sırasında növbə Zəngilan rayonuna da çatdı: Zəngilan şəhəri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri işğaldan azad edildi. Oktyabrın 20-də Prezident İlham Əliyev bu xoş xəbəri xalqa çatdırdı: "Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Əziz xalqım, əziz zəngilanlılar, füzulililər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!"

2020-ci il dekabrın 23-də Prezident İlham Əliyev Zəngilanda Azərbaycan Bayrağını ucaldıb. 2023-cü il iyulun 31-də isə dövlət başçısının imzaladığı Sərəncama əsasən şəhərin işğaldan azad edildiyi 20 oktyabr tarixi Zəngilan Şəhəri Günü kimi qeyd olunur.

Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində Zəngilan işğaldan azad edildikdən sonra Zəngəzur bölgəsinə nəzarət imkanları yaranıb. Həmçinin Ağbənd qəsəbəsi və Vejnəli yüksəkliyinin düşməndən təmizlənməsi ilə Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsi bərpa edilib. Dövlət sərhədi nəzarətə götürülməklə Ermənistana gətirilən hərbi yüklərin qarşısı alınıb. Rayonun işğaldan azad edilməsi Qarabağ düyününün açılmasında həlledici amil oldu. Bartaz, Şükürataz və daha altı yüksəkliyin azad olunması çox böyük strateji üstünlük idi.




Vətən müharibəsində Zəngilanın azad edilməsi üçün uğurlu "Üç nöqtə" əməliyyatı həyata keçirilib. Bir gün əvvəl ərazinin havadan kəşfiyyatı aparılıb, düşmən haqqında məlumat, onun yerləşmə yeri, canlı qüvvəsi, texnikası, atəş mövqeləri dəqiqləşdirilərək müvafiq qərarların qəbul olunması üçün komanda məntəqəsində təhlil olunub. Növbəti gün gecə saatlarında kiçik çevik qruplar tərəfindən sızma əməliyyatı icra olunaraq düşmənə sarsıdıcı zərbələr endirilib və onlar qaçmağa məcbur olublar. Pilotsuz uçuş aparatları vasitəsilə düşmən dərinliklərindəki artilleriya qurğuları, yaxınlaşmaqda olan texnika məhv edilib.

Vətən müharibəsi yekunlaşandan dərhal sonra sıx meşələri, yaşıl bitki örtüyü, gursulu çayları ilə seçilən Şərqi Zəngəzurun ən gözəl guşələrindən olan Zəngilan rayonunda sürətli yenidənqurma işlərinə başlanılıb. 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Bu hava limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən 2021-ci il oktyabrın 26-da təməli qoyulan Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi tamamlanmaq üzrədir.

Bundan başqa, Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsi həyata keçirilib. 2022-ci il mayın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilana "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər. 2022-ci il iyulun 19-da Ağalı kəndinə əhalinin köçürülməsinə başlanılıb. Böyük Qayıdışın başlanğıcı olan bu proses yaddaqalan hadisə kimi tarixə düşüb.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Azad olunan ərazilərdə bərpa-quruculuq işlərinin sürətlə aparılması sakinləri də sevindirir. Artıq Zəngilanda bir çox yenidənqurma işləri görülüb. Ağalı kəndində sakinlər öz həyatlarına davam edir, məktəbdə dərslər keçirilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Milli Qəhrəmanlarımız*

# Canını Vətənə fəda edən qəhrəman



***Bu gün şanlı üçrəngli bayrağımız Azərbaycanın bütün bölgələrində əzəmətlə dalğalanır. Bu, son 4 il ərzində Azərbaycan Ordusunun qəhrəman və igid oğullarının yazdığı tarixin nəticəsidir. 2020-ci il sentyabrın 27-də başlayan haqq savaşımız zamanı canlarını əsirgəməyən oğullarımız döyüş meydanında hünərləri ilə yanaşı, misilsiz Vətən sevgisini də nümayiş etdirdilər. 30 ilə yaxın işğalda qalmış torpaqlarımız erməni silahlı birləşmələrindən azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Qısa müddət ərzində əsrlər boyu yaşayacaq, tarix yazan qorxmaz igidlərimiz vətənpərvərlik və vətəndaşlıq borcunu da ləyaqətlə ödəməyi bacardılar.***

Vətəni qorumaq bu gün də Azərbaycan əsgərinin qarşısında duran ən ümdə vəzifədir və sözsüz ki, onu müdafiə etməyə hər zaman hazır olmalıdır. Çünki azərbaycanlı olmaq yaşından, vəzifəsindən, rütbəsindən asılı olmayaraq Vətənin bütövlüyünü göz bəbəyi kimi qorumaqdır. Polkovnik Şükür Həmidov da döyüşlərin ən qızğın nöqtələrində iştirak etmiş, tabeliyindəki şəxsi heyətlə birlikdə yazılan tarixi öz qanı ilə əbədiləşdirənlərdən biri olub.

Şükür Həmidov 1975-ci il aprelin 1-də Qubadlı rayonunun Armudlu kəndində dünyaya gəlib. Müəllim ailəsində doğulan Milli Qəhrəmanımız rayonun Başarat orta məktəbində təhsil alıb, 8-ci sinfi başa vurduqdan sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub, buranı bitirdikdən sonra Bakı Birləşmiş Ali Hərbi Komandirlər Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) hərbi təhsilini uğurla başa vurur. Xidmət etdiyi müddətdə qəhrəmanımız öz cəsarəti və rəşadəti ilə tabeliyindəki şəxsi heyətə də əsl nümunə olmağı bacarıb. Belə ki, 2016-cı il Aprel döyüşləri zamanı göstərdiyi yüksək şücaətə görə vaxtından əvvəl növbəti “polkovnik” hərbi rütbəsinə yüksəlib və Azərbaycan Respublikası Prezidentinin 22 aprel 2016-cı il tarixli Sərəncamı ilə Şükür Nəriman oğlu Həmidov "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. 44 günlük Vətən müharibəsi zamanı da polkovnik Şükür Həmidov Cənub cəbhəsində Füzulidən döyüşlərin idarə olunmasında iştirak edib. Şəhid Milli Qəhrəman daha sonra Cəbrayıl və Qubadlı istiqamətində keçirilən əməliyyatlarda düşmənin darmadağın olunmasında böyük rəşadət göstərən təcrübəli zabitlərdən biri idi. Milli Qəhrəman polkovnik Şükür Həmidov oktyabrın 22-də Qubadlı rayonunun Mahmudlu kəndi istiqamətində gedən döyüşlər zamanı şəhadətə yüksəlib. O, oktyabrın 23-də İkinci Fəxri xiyabanda dəfn olunub. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və tarixi ərazilərimizin işğaldan azad olunmasında göstərdiyi rəşadətə və qəhrəmanlığa görə dövlətimizin başçısı tərəfindən "Zəfər" ordeninə layiq görülüb. Bundan başqa, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib. Milli Qəhrəman Şükür Həmidov ailəli idi, övladları Əzizə və Nurlan Vətənə yadigar qalıb.

Doğulub boya-başa çatdığı Qubadlının azad olunması uğrunda gedən döyüşlərdə şəhid olan qəhrəmanımızın ruhu bu gün şaddır. Çünki Azərbaycanın üçrəngli bayrağı Qubadlıda da dalğalanır. Vətənimizin hər qarışını qorumaq uğrunda ata-babalarımız misilsiz şücaət və rəşadət nümayiş etdiriblər. Minlərlə şəhid vermiş yurdumuzun silinməz tarixi də şəhidlərimizin qanıyla yazılıb. Özündən sonra şərəfli adını tarixə həkk edən hər bir soydaşımız qəhrəmanlıq xarakterini qorumaqla öz sələflərinin yolunu davam etdirməyi bacarıb. Qədirbilən xalqımız da hər zaman yüksək ehtiram sahibi olan şəhidlərini daim yad edir.

**Kapitan
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# “Müharibə başlamamışdan əvvəl şəhid olacağını yuxuda görmüşdüm”



*Oğul itirən ananın qəhəri ovunmaz, dərdi bölünməz, ürəyinin giziltiləri kiçilməz. Belə anaları çox görmüşəm - dostda, qohumlarda, qonşularda. Şəhid analarının qəhəri digərlərindən fərqlənir. Gözlərinə baxmaq olmur onların. Sanki gözlərinin dərinliyində dünya dağılıb. Kədərində, qəmində bir əlçim təsəlli də olur... Ağlayanda göz yaşları, dərdinin ağırlığı, həsrətinin ünvanı, oğul sevgisi bənzərsiz olur şəhid analarının. Şəhidlər xiyabanında şəkilləşmiş oğullarına dediyi ağılar da fərqlidir.*

"Şəhidlər ölməz" deyirik - təsəlli kimi, "Vətən sağ olsun" deyirik - təsəlli kimi, bu təsəlli şəhidləri qürurla anmaqdır. "Şəhidlər qürur ünvanımızdır" - deyirik. O şəhidlərin anaları nə çəkirlər, çoxumuz bilmirik. "Od düşdüyü yeri yandırar", - deyirlər.

Şair Cabir Novruz övladını itirən şəhid analarına sevgisini şəhidlərə ehtiram kimi duyğusallıqla təqdim edib:

Oğulları döyüşdən
geri dönməyənləri,
Fəqət ürəklərində
ümid sönməyənləri,
Bir gecədə saçını
ağappaq hörənləri,
Bir gözüylə ağlayıb,
birilə gülənləri,
Keçmiş qanlı davadan
hər gün söz salanları,
Gəlinsiz olanları,
nəvəsiz qalanları
Övlad məhəbbətilə
isitmək istəyirəm,
Ürək hərarətilə
isitmək istəyirəm.

Ürəyini isitmək istədiyimiz şəhid Mərhəmət Əhmədovun anası Xatirə Əhmədovanın oğlu ilə bağlı xatirələri bizi də kövrəltdi...

Şəhid Mərhəmət Əhmədov 1991-ci il mayın 14-də Şərur rayonunun Oğuz kəndində doğulmuşdu. Müddətli həqiqi hərbi xidməti başa vurduqdan sonra 2019-cu ildə müvafiq kurs keçərək Əlahiddə Ümumqoşun Orduda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlamışdı. Mərhəmət 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsində Füzulinin, Hadrutun, Tuğun, Daşaltının işğaldan azad olunmasında cəsarətlə döyüşüb. O, Şuşa istiqamətinə irəliləyərkən şəhid olub...



Mərhəmət Əhmədov Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Xatirə ana qəhərlə dedi ki, "Mərhəmət çox qoçaq və qıvraq uşaq idi. Həm də deyib-gülən, zəhmətkeş, inadkar. Onun yanında heç kim darıxmazdı. Tənbəl deyildi. İki yaşı olanda axşamçağı şam yeməyi üçün salat doğramışdım. Salatı çox sevərdi, həmişə onu doğranmamış yeyərdi. Salatı doğradığımı görəndə ağladı. Əkin sahəsi də evdən biraz aralı idi, hava da qaralmışdı. Heç gücü də çatmazdı ki, tərəvəzi koldan qoparsın. Amma gördüm gedir əkin sahəsinə, gizlicə onu izlədim. Düşündüm ki, həyətə çıxanda qaranlıq olduğunu görüb geri qayıdacaq. Lakin o, arxasına baxmadan getdi, sahədə tərəvəzi qoparmağa gücü çatmırdı, bir-iki dəfə dartışdırandan sonra kolu qırıb istədiyinə nail oldu. Çox təəccübləndim, anladım ki, Mərhəmət böyüyəndə qorxmaz, inadkar, məqsədləri uğrunda mübarizə aparan, istədiyinə nail olan olacaq. Məktəbdə də seçilən və sevilən şagird idi. Müəllimləri və sinif yoldaşları onu indi də yad edirlər. Tez-tez məzarını ziyarət edir, evimizə gəlir, mənimlə maraqlanırlar”.

Duyğularına sarılan ana oğlunun bu şərəfli və çətin peşəyə olan sevgisindən söz açdı. Hərbçi olmasından, döyüş yolundan danışdı. "Mərhəmət orta məktəbi bitirəndən sonra əsgərliyə getdi. Hərbi xidmətdə olanda hərbçi peşəsinə böyük marağı yaranmış, nümunəvi xidməti ilə seçilmişdi. Komandanlığın fəxri fərmanlarını da almışdı. Hər dəfə görüşə gedəndə, komandirlərindən, əsgər yoldaşlarından çox razılıq edirdi. Xidmətini başa vurduqdan sonra hərbçi olmaq qərarı aldığını bildirdi. Atası da, mən də bu qərarına yox demədik, ona dəstək olduq - şərəfli yol seçmişdi, bu seçimə xeyir-dua verdik. O da Vətən müdafiəçilərindən oldu. Hərbi mundirə çox vurğun idi. Peşəsini sevirdi.

Vətən müharibəsi başlayanda çox həyəcanlı idi, bir yerdə dura bilmirdi. Onların da döyüş əməliyyatlarına cəlb olunacağı əmri səbirsizliklə gözləyirdi. "Vətən bizi səsləyir, torpaqlarımızı azad edəcəyik", - deyirdi. Hər gün qələbə müjdəsi alırdıq. Lakin qələbə müjdələri ilə yanaşı, qapılarımızı acı xəbər də döydü. Oktyabrın 11-i müharibəyə getdi, 27-si şəhid oldu. Döyüş yoldaşları Mərhəmətin döyüş meydanında şücaətindən, qorxmazlığından danışırlar".

Xatirə ana döyüşlər vaxtı oğlunun telefon zənglərindən də danışdı. "Nə qədər çalışsam da, özümü saxlaya bilmirdim, səsini eşidən kimi ağlayırdım. "Ana, düşməni məhv edirik, torpaqlarımızı azad edirik, ağlama, möhkəm ol, məğrur ol, qayıdacam", - deyirdi. Hələ müharibə başlamazdan əvvəl yuxuda görmüşdüm şəhid olacağını. Özünə deməmişdim, amma yuxumda gördüklərim məni narahat edirdi. Ürəyimin bir yerində yaram vardı. Oktyabrın 27-də şəhid xəbəri gəldi...".

Mərhəmətin Bünyamin və İbrahim adlı iki övladının yadigar qaldığını deyən Xatirə ana öz gəncliyindən də danışdı. Əslən qarabağlı olduğunu bildirdi. "Mən əslən Qarabağ bölgəsindənəm. Ailə qurub Naxçıvana gələndən sonra ata yurdum işğal altına düşdü. Gənclik illərimin keçdiyi o dağları, o dərələri bir də görməyin arzusunda olmuşam həmişə. Müzəffər Ali Baş Komandanımız və rəşadətli ordumuz arzularımızı çin etdi. Mərhəmət kimi minlərlə oğul bu müqəddəs yolda şəhid oldu. Acımız ağır olsa da, qürurumuz və sevincimiz sonsuzdu. Tarixi Zəfərimizlə, işğaldan azad olunan ərazilərimizdə üçrəngli bayrağımızın dalğalanması ilə təsəlli tapırıq".

Analar deyirdilər ki, yuxular tərsinə yozulur. Xatirə ananın yuxusu gerçək oldu...

**Nuray NƏZƏROVA
Bakı şəhəri**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** İşğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri

**Suallar:**

**1. Ötən əsrin 90-cı illərində bölgədə yaranmış ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli Sərəncamı və bu Sərəncamın tarixi əhəmiyyəti.**

### Ötən əsrin 90-cı illərində bölgədə yaranmış ictimai-siyasi vəziyyət

XIX əsrin əvvəllərində Rusiya imperiyasının cənub dənizlərinə doğru həyata keçirdiyi müstəmləkəçilik siyasəti nəticəsində Qacarlar dövləti ilə Rusiya imperiyası arasında baş vermiş müharibələr nəticəsində 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanması Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarının bölünməsinin əsasını qoymuşdur. Qısa bir müddətdə bu siyasət gerçəkləşdiriləræk ermənilərin kütləvi surətdə Azərbaycan türklərinin yaşadığı İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarına köçürülməsi həyata keçirilir. Cənubi Qafqaza köçürülmüş və getdikcə öz yerlərini möhkəmləndirən ermənilər "Böyük Ermənistan" yaradılması ideyasının və onun təbliği siyasətinin əsasını qoyurlar.

Ötən əsrin sonunda tarixi proseslərin gedişi nəticəsində yenidən müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası dünya birliyi ölkələri sırasına qoşulmuşdur. Lakin təəssüflə qeyd etməliyik ki, neçə yüzillər boyunca daimi problem kimi Azərbaycanı izləyən qonşu Ermənistanın əsassız ərazi iddiaları müstəqillik əldə etdikdən sonra da dövlətimizin irəliyə doğru inkişafı yolunda mühüm maneə olmuşdur. Nəticədə, dövlətimizin ərazi bütövlüyü pozulmuş, 20 faizdən artıq ərazimizdə dövlət suverenliyi itirilmiş (20.09.2023-cü il tarixinədək), yüz minlərlə vətəndaşımız öz doğma yurdlarından didərgin düşərək məcburi köçkün olmuşdur.

XIX əsrin sonlarından, millətçi "Qaçaq" və "Daşnaksütyun" partiyaları yarandıqdan sonra ermənilər məskunlaşdıqları, lakin tarixən azərbaycanlılara məxsus torpaqlardan soydaşlarımızın qovulması işinin sistemli şəkildə icrasına başladılar. İki əsri əhatə edən erməni ekspansiyası prosesi azərbaycanlılara qarşı ən müxtəlif formalarda - soyqırımı, deportasiya, terror, separatizm, tarixin saxtalaşdırılması və milli mədəniyyət abidələrinin məhv edilməsi ilə müşayiət olunan mənəvi terror formalarında təzahür etmişdir.

1987-ci ilin sonlarından etibarən Ermənistan SSR-in paytaxtı İrəvan şəhərində 1923-cü ildə əsası qoyulmuş keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Ermənistana birləşdirilməsi tələbləri ilə kütləvi aksiyalara başlanılır. 1988-ci ilin yanvarınadək keçmiş Qarabağ münaqişəsinin yeni mərhələsinin startı üçün bütün hazırlıqlar yekunlaşmışdı. Ulu Öndər Heydər Əliyevin İttifaq rəhbərliyindən uzaqlaşdırılması ilə mərkəzdə ermənilərin xeyrinə dəyişən balans problemin həllində imperiyanın (SSRİ) birbaşa olaraq erməniərəst mövqe tutacağını şərtləndirirdi. 1988-ci ilin yanvarından etibarən SSRİ-nin ali rəhbərliyinin dəstəyinə arxalanan ermənilər Ermənistanda yaşayan azərbaycanlıların tarixi torpaqlarından kütləvi deportasiyasına başlayırlar. Bu proses 1989-cu ildə başa çatdırılır, həmin illər ərzində Ermənistanın 22 rayonundan 240 000-dən çox azərbaycanlı deportasiyaya məruz qalır. 1989-cu ildə Sovet ordusunun hərbi dəstəyinə arxalanan erməni silahlı birləşmələrinin Qarabağda azərbaycanlılar məskunlaşmış yaşayış məntəqələrinə və müxtəlif nəqliyyat vasitələrinə hücumları ilə xarakterizə olunmuşdur. Həmin ilin iyulundan Ermənistan tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasının təcridinə başlanılır. Dekabrın 1-də Ermənistan SSR-in Ali Soveti qeyri-qanuni şəkildə keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etdi. 1991-ci il sentyabrın 2-də erməni separatçıları Azərbaycan Respublikasının keçmiş "Dağlıq Qarabağ" regionunda qeyri-qanuni olaraq qondarma "Dağlıq Qarabağ Respublikası"nın qurulmasını bəyan etdilər. 1988-ci ildən başlayaraq erməni separatçılarının qısa müddət ərzində qazandığı uğurların əsas səbəbi imperiya (SSRİ) rəhbərliyindən aldıqları böyük dəstək olsa da, həmin dövrdə ölkə rəhbərliyinin nümayiş etdirdiyi susqunluq və laqeyd münasibət də məlum proseslərin nəzarətdən çıxmasını şərtləndirdi.

1992-ci ilin ilk günlərindən etibarən keçmiş "Dağlıq Qarabağ"ın azərbaycanlılar yaşayan məntəqələrinin işğalına başlanıldı. 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndləri işğal olundu, dinc və silahsız əhaliyə divan tutuldu. Bu vaxt Azərbaycan Silahlı Qüvvələrinin Daşaltıda apardıqları hərbi əməliyyat da uğursuzluqla nəticələndi. Bir müddət sonra Qaradağlı kəndini də ələ keçirən separatçılar 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xankəndidə yerləşən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda azərbaycanlılara qarşı dəhşətli soyqırımı aktı törətdilər. Xocalı faciəsi zamanı 613 nəfər (o cümlədən 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca) öldürüldü.

1992-ci ilin mayında Şuşanın süqutu ilə faktiki olaraq bütün keçmiş "Dağlıq Qarabağ"ın ərazisi işğal edildi. Laçının işğalı ilə isə Ermənistandan Qarabağa dəhliz açıldı və bu "humanitar dəhliz", əslində, qanlı körpüyə çevrildi. Laçın vasitəsilə qısa zamanda külli miqdarda silah, döyüş sursatı, hərbi qüvvə əldə edən ermənilərin daha sonra işğal etdikləri Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının ərazisi (17000 kv.km) keçmiş "Dağlıq Qarabağ"ın ümumi ərazisindən (4400 kv.km) dörd dəfə böyük idi. Ümumiyyətlə, Ermənistanın işğalçı hərbi birləşmələri Azərbaycan sərhədlərinin 360 km-lik sahəsində irəliləyərək ərazilərimizin 20 faizədək hissəsini işğal etmiş, Füzuli rayonundakı Horadiz qəsəbəsindən Zəngilanadək 198 km-lik Azərbaycan-İran sərhədlərini nəzarət altına almışdı. Erməni işğalları nəticəsində keçmiş "Dağlıq Qarabağ" ərazisində 50 minədək azərbaycanlının yaşadığı 2 şəhər, 1 qəsəbə, 53 kənd tutuldu. Keçmiş "Dağlıq Qarabağ"dan kənarda aparılan işğallarla birlikdə ümumilikdə 890 yaşayış məntəqəsi ermənilərin əlinə keçdi. Azərbaycanın civə, obsidian və perlit ehtiyatlarının hamısı, tikinti və üzlük materiallarının 35-60 faizi, meşə fondunun 24 faizi, su ehtiyatlarının 7,8 faizi işğal olunmuş torpaqların payına düşür. Burada 2 qoruq və 3 iri su anbarı da yerləşir.

Həm sovet dövründə, həm də müstəqillik dövründə bir-birini dəyişən antimilli hökumətlər, xüsusilə də AXC-Müsavat antimilli cütlüyünün xəyanətkar və səriştəsiz fəaliyyəti nəticəsində ərazilərimiz işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya dondураraq kənara çəkildilər.

Ulu Öndər Heydər Əliyev dühası, Heydər Əliyev amili Azərbaycan xalqının yardımına yetişdi. Azərbaycanın üzləşdiyi amansız və ədalətsiz müharibədəki məğlubiyyət silsiləsinə 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə 1994-cü ilin mayında son qoyuldu. Cəbhədə əldə edilən atəşkəs Azərbaycan dövlətinin güclənməsi, ordunun qüdrətlənməsi, iqtisadiyyatın inkişafı, xarici siyasətin effektliliyi üçün münbit zəmin formalaşdırdı. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli iradəsi ilə 2023-cü ilin sentyabrında Azərbaycan Respublikasının bütün ərazisində dövlət suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa olunaraq Ermənistan və Azərbaycan arasında mövcud olmuş Qarabağ münaqişəsinə son qoyuldu.

### Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli Sərəncamı və bu Sərəncamın tarixi əhəmiyyəti

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli torpaqlarımız 44 günlük Vətən müharibəsində və Qarabağ iqtisadi rayonunda keçirilən bir günlük antiterror əməliyyatı nəticəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Rəşadətli Azərbaycan Ordusunun hərbi qulluqçularının canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Şanlı Ordumuz Qarabağın tacı olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi işğaldan azad etməklə Ermənistanı diz çökdürdü və kapitulyasiya aktını imzalamağa məcbur etdi.

Sentyabrın 27-də başlanan müharibə Azərbaycanın tam qələbəsi ilə başa çatdı. Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı - Ermənistan işğal etdiyi Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytarmaq məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Qarabağ iqtisadi rayonunda Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 19 sentyabr 2023-cü il tarixində antiterror əməliyyatına başlanıldı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasi kursunun layiqli davamçısının rəhbərliyi altında, "Heydər Əliyev İli"ndə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkədə siyasi hakimiyyətə gəlməsinin 20 illiyi ərəfəsində Xankəndi, Xocalı, Xocavənd, Ağdərə və digər yaşayış məntəqələri işğaldan azad olunaraq Azərbaycan Respublikasının konstitusiya quruluşu, dövlət suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa edildi.

30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 noyabr tarixli müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Cəbrayıl, Laçın, Füzuli və Şuşa şəhərlərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuş və bu işlər davam etdirilməkdədir.

Vətən müharibəsindəki tarixi qələbəni əbədiləşdirmək məqsədilə işğaldan azad edilmiş şəhərlərin günləri Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2023-cü il tarixli müvafiq Sərəncamı ilə aşağıdakı kimi təsis edilmişdir:

26 avqust - Laçın Şəhəri Günü; 4 oktyabr - Cəbrayıl Şəhəri Günü; 17 oktyabr - Füzuli Şəhəri Günü; 20 oktyabr - Zəngilan Şəhəri Günü; 25 oktyabr - Qubadlı Şəhəri Günü; 8 noyabr - Şuşa Şəhəri Günü; 20 noyabr - Ağdam Şəhəri Günü; 25 noyabr - Kəlbəcər Şəhəri Günü; 20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə Şəhəri Günü.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində, özünün dövlətçilik ənənələrini qoruyub saxlaya bilmiş, hətta Şərq və Qərb dünyasında özünəməxsusluğu ilə seçilən qüdrətli imperiyalar yaratmışdır. Bu həm Manna, Atropatena, Albaniya kimi qədim, həm də Şirvanşahlar, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi qüdrətli orta əsr dövlətlərinin, həmçinin ərazi cəhətdən kiçik olsa da, xanlıqlar kimi siyasi müstəqilliyə malik son orta əsr dövlətlərimizin timsalında özünü göstərmişdir.

Bugünkü inkişafımızın təməlini təşkil edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik ideyaları, XX yüzilliyin sonu Azərbaycan xalqının dövlətçilik uğrunda apardığı mübarizəsi və qan yaddaşımızda əbədi yaşayacaq hadisələrin içərisində müstəqilliyimizin ilk 30 illik dövrünün keşməkeşləri, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun apardığı 44 günlük Vətən müharibəsinin, antiterror əməliyyatının heç vaxt silinməyəcək izləri əsrlər boyunca gələcək nəsillərimizin fikir və düşüncələrinə hakim kəsiləcək, şanlı tariximizə qızıl hərflərlə qeyd ediləcəkdir. Əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik amalları yüksək ideyalarla yaşadılmaqdadır. Bu amal gələcək nəslə də çatdırılacaqdır. Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə Azərbaycan Respublikası Prezidentinin ətrafında sıx birləşərək, vətəndaşlıq borcumuzu layiqincə yerinə yetirəcəyik.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Vətənpərvərlik tədbirləri davam edir



Azərbaycan Ordusunun hərbi hissə və birləşmələrində xidmət edən şəxsi heyətin asudə vaxtının səmərəli təşkil olunması, döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsinin, vətənpərvərlik ruhunun yüksəldilməsi üçün müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunan vətənpərvərlik tədbirləri davam edir. Mərkəzin təbliğat-təşviqat qrupunun üzvləri, "Vətən uğrunda" ansamblının solistləri "N" hərbi hissəsində şəxsi heyətlə görüş təşkil etdilər.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Mərkəzin əməkdaşları Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi, ordu ilə xalqın yenilməz birliyi, polad iradəsi ilə qazanılan tarixi qələbədən, hərbi qulluqçuların düşmənə qarşı apardıqları uğurlu döyüş əməliyyatlarından qürur hissi ilə danışdılar. Bildirdilər ki, şanlı ordumuz düşmən ordusu haqqında yaradılan mifləri qısa müddətdə puç etdi. Havadarlarından dəstək alan, beynəlxalq hüquqa məhəl qoymayan, çirkin əməllərindən əl çəkmək istəməyən düşməni 44 gün ərzində ağır məğlubiyyətə uğratdı. 19-20 sentyabr 2023-cü ildə keçirilən antiterror əməliyyatı ilə ölkəmizin ərazisində Ermənistan ordusunun qalıqları tərksilah edildi, qanunsuz silahlı birləşmələrin mövcudluğuna, separatizmə son qoyuldu. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. İşğaldan azad edilmiş ərazilərimizdə müstəqilliyimizin, dövlətçiliyimizin rəmzi olan üçrəngli bayrağımız Ali Baş Komandan tərəfindən dalğalandırıldı. Tarixi qələbədən sonra ölkəmizdə yeni dövr başlandı. Xalqımız dünyada qalib, tarixi ədaləti bərpa edən, haqq yolundan dönməyən, polad iradəli xalq kimi tanındı. Genişmiqyaslı quruculuq, abadlıq işlərinə start verildi. Dağıdılmış, talan edilmiş şəhər və rayonlarımız, qəsəbələrimiz, kəndlərimiz yenidən qurulmağa başladı. Artıq soydaşlarımız doğma yurd yerlərinə qayıdırlar. Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalanların ailələrinə, döyüşlərdə yaralananlara, müharibə iştirakçılarına dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir. Onların həyat səviyyələrinin yüksək olması üçün zəruri tədbirlər həyata keçirilir.



Sonda əsgərlər stolüstü oyunlarda, müsabiqələrdə həvəslə iştirak etdilər. "Vətən uğrunda" ansamblının üzvləri - Sevinc Nəsirovanın vətənpərvərliyi tərənnüm edən mahnıları, Təbriz İsmayılovun sazda ifa etdiyi el havaları şəxsi heyətdə xoş ovqat, yüksək əhval-ruhiyyə yaratdı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin xüsusi xidmət orqanları təhlükəli terrorçuları məhv edib

Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) İraqın şimalında PKK terror təşkilatının xüsusi təhlükəli iki üzvünü məhv etmək üçün əməliyyat keçirib.

Türkiyə mətbuatı xəbər verir ki, İraqın Süleymaniyyə vilayətində yerli əhalidən PKK terrorçularının xeyrinə "vergi" toplayan Caize Selber və Emine Ulaş zərərsizləşdirilib.

Kəşfiyyat orqanları terrorçuların İranla həmsərhəd olan Pəncevin rayonunda yerləşdiyini müəyyən ediblər, onlar burada da cinayətkar təşkilatın sıralarına qoşulmaq üçün yerli gənclər arasında təbliğat-təşviqat işləri aparıblar.



MİT əməkdaşları vaxtaşırı olaraq Türkiyənin maraqlarını təhdid edən terror təşkilatlarının liderlərini zərərsizləşdirmək üçün əməliyyatlar həyata keçirirlər.

Bu günlərdə Türkiyə xüsusi xidmət orqanları PKK-nın Suriya qanadının iki lideri - YPG-nin başçısı Hüseyn Öztürk və Vidan Fatenin Təll-Rıfat bölgəsində məhv edilməsi barədə məlumat yayıb.

## Cənubi Koreya KXDR-lə sərhədin yaxınlığında hərbi təlim keçirib



Koreya Respublikasının silahlı qüvvələri ölkənin şərqində KXDR ilə həmsərhəd əyalətdə yaylım atəşi sistemlərindən istifadə etməklə hərbi təlim keçirib.

"Yonhap" agentliyi bu barədə Cənubi Koreya ordusuna istinadla məlumat yayıb.

Təlim oktyabrın 17-də gecə saatlarında Kanvondo əyalətinin Keson rayonu ərazisində baş tutub. Manevrlər zamanı Cənubi Koreya hərbçiləri sahildən 17 kilometr məsafədə dənizdə yerləşən şərti hədəfləri vurublar.

"Təlimlər düşmən təxribatı zamanı ordunun qətiyyətinin və cavab zərbəsi endirmək qabiliyyətinin nümayişi üçün keçirilib", - deyə məlumatda vurğulanır.

Manevrlərə cəlb olunan "Çhonmu" yaylım atəş sistemi 12 raketlə təchiz edilib və 36 kilometrədək uzaqlıqdakı hədəfləri vura bilir.

Cənubi Koreya ordusu, eyni zamanda, oktyabrın 20-də hər il keçirilən genişmiqyaslı "Hoquk" təliminə başladığını bildirib. Manevrlər təxminən üç həftə - noyabrın 8-dək davam edəcək. Koreya Respublikasındakı ABŞ hərbi kontingentinin nümayəndələrinin də iştirak edəcəyi builki təlimlərə daha çox hərbçi və texnika cəlb olunacaq. Manevrlər bütün qoşun növlərinin iştirakı ilə müxtəlif məkanlarda "KXDR-in törədə biləcəyi təxribatlar" nəzərə alınmaqla həyata keçirilir.

## Niderland Ukraynaya 42,6 milyon avro dəyərində PUA verəcək



Niderland Ukraynanı 42,6 milyon avro dəyərində pilotsuz uçuş aparatları ilə təmin edəcək.

Niderlandın müdafiə naziri Ruben Brekelmans bu barədə özünün sosial media hesabında məlumat yayıb.

"Hazırda Ukraynanın müasir pilotsuz aparatlara böyük ehtiyacı var. Buna görə də Niderlandın "DeltaQuad" şirkəti Kiyevi 42,6 milyon avro dəyərində kəşfiyyat PUA-ları ilə təmin edəcək", - deyə Ruben Brekelmans bildirib.

Təhlükəsizlik baxımından Kiyevə tədarük ediləcək PUA-ların sayı açıqlanmır.

Sözügedən kəşfiyyat PUA-ları uzun məsafələrdə döyüş meydanından real vaxt rejimində məlumat əldə etmək qabiliyyətinə malikdir.

Qeyd edək ki, Niderland oktyabrın əvvəlində Ukrayna üçün pilotsuz uçuş aparatının fəaliyyət planına 400 milyon avro ayırdığını açıqlayıb. Plan çərçivəsində hər iki ölkə müasir dronların birgə istehsalı ilə məşğul olacaq və uğurlu prototiplərin istehsalını sürətləndirəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## Azərbaycan karateçisi "Belarus Open" turnirinin qalibi olub



Karate üzrə Azərbaycan milli komandasının üzvü Asiman Qurbanlı Minsk şəhərində keçirilən "Belarus Open-2024" beynəlxalq turnirində qızıl medal qazanıb.

84 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən idmançı bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Avropa çempionatında medal qazanmış boks üzrə Azərbaycan millisi Vətənə dönüb



Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən 23 yaşadək boksçuların Avropa çempionatında medal qazanmış Azərbaycan idmançıları Vətənə dönüblər.

Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma mərasimində idmançıların ailə üzvləri, yaxınları, media və federasiya nümayəndələri iştirak ediblər.

Yığmanın üzvü Murad Allahverdiyev (80 kiloqram) çatışmazlığın üstündə işləyəcəyini söyləyib: "Finalda fransalı rəqibimə məğlub oldum. Onunla yenidən qarşılaşmaq istəyirəm. Növbəti hədəf Azərbaycan çempionatından sonra bəlli olacaq. Baş məşqçilər qatılacağımız yarışları müəyyənləşdirəcək. Ona uyğun hazırlıq keçəcəyik".

Azərbaycan millisinin heyətində Tural Sarıyev (48 kiloqram), Nicat Hüseynov (51 kiloqram) və Murad Allahverdiyev (80 kiloqram) gümüş, Marjona Savriyeva (50 kiloqram) bürünc medal qazanıblar.

## Gimnaziadada Azərbaycanı təmsil edəcək şahmatçılar bəlli olub




Bəhreynin paytaxtı Manamada keçiriləcək Gimnaziada İdman Oyunlarında çıxış edəcək Azərbaycan şahmatçıları bəlli olub.

Məktəblilərin iştirak etdiyi oyunlarda ölkəmizi Paşam Əlizadə, Rüstəm Rüstəmov, Yunis Mahmudzadə, Tunar Davudov, Dinara Hüseynova, Lalə Hüseynova, Nurtən Nuriyeva, Məryəm Ağaverdiyeva, Nərmin Abdinova və Səadət Bəşirli təmsil edəcəklər.

Gimnaziadada şahmat yarışları oktyabrın 25-29-da təşkil olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Məsul katib
mayor
Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
Bəxtiyar ƏLİYEV

Lisenziya № 361
Sifariş № 642
Nüsxə 4650